Yeni Azərbaycan.- 2024.- 23 may, №91.- S.8.

# Mədəniyyətimizin unudulmaz siması...

## Şəmsi Bədəlbəylinin anım günüdür



*Yeganə BAYRAMOVA*

Onun qədər Azərbaycanda bədii nüansları duyan, iş prosesinin yönümünü bilən rejissor yox idi. Ömrü boyu incəsənətə yüksək amalla xidmət edərək teatrımıza yeni quruluş gətirmişdi. Həqiqətən də xalq üçün yaradanlar, çalışanlar heç vaxt unudulmurlar. Özləri həyatda olmasalar da, xatirələri anılır, xidmətləri yaddan çıxmır. Bu sırada tanınmış Azərbaycan aktyoru və rejissoru Şəmsi Bədəlbəylinin adını xüsusilə qeyd etmək yerinə düşər. Onun kimi örnək insanlar mədəniyyət tariximizin əbədiyaşar simalarıdır.

Bu gün Şəmsi Bədəlbəylinin vəfatından 37 il ötür. Rejissor 1911-ci il fevralın 23-də Şuşada anadan olub. Orta məktəbi bitirdikdən sonra atası Bədəl bəy kimi, müəllim olmaq istəyi ilə Bakı Pedaqoji Texnikumuna daxil olub. Amma içdən gələn bir hökm onu başqa sahəyə aparıb. Hələ yeniyetmə çağlarından musiqiyə həvəs göstərən Şəmsi qardaşı Əfrasiyabın məsləhəti ilə Azərbaycan Dövlət Konservatoriyasında Üzeyir Hacıbəylinin sinfində təhsil alıb. Dövrün məşhur dramaturqu Cəfər Cabbarlı ilə Əfrasiyab Bədəlbəylinin dostluğu, onların teatrla, musiqi ilə bağlı söhbətləri Şəmsini də özünə çəkərmiş. O, evlərində dövrün tanınmış ziyalılarını, mədəniyyət xadimlərini tez-tez görərdi. Özündən yaşca böyük sənətkarlarla dostluq etməyi çox sevən Şəmsi sonralar Cəfər Cabbarlı, rejissorlardan İsmayıl Hidayətzadə, Aleksandr Tuqanovla həm fikir oldu. Onun teatra olan həvəsi getdikcə sönməz məşələ dönürdü.

1932-ci ildə Azərbaycan Dövlət Dram Teatrında əmək fəaliyyətinə başlayan Şəmsi Bədəlbəyli bu teatrda on il rejissor vəzifəsində çalışıb. Arada Moskvada rejissorluq üzrə təcrübə keçməyə göndərilərək Malı Teatrda Şillerin “Don Karlos” əsərinin hazırlanmasında assistent kimi təcrübə keçib. Bu qədim teatrın yaradıcı heyəti ilə ünsiyyət qurub. Sonradan doğma şəhərə qayıdaraq fəaliyyətini davam etdirib. Onun Dram Teatrında ilk yaradıcılıq işi Mirzə Fətəli Axundovun “Müsyö Jordan və Dərviş Məstəli Şah” komediyası oldu. İlk yaradıcılıq işi ona fərəh gətirdi. Tamaşa yüksək qiymətləndirildi. Sonrakı işlərindən biri də 1939-cu ildə quruluş verdiyi “Ölülər” komediyası oldu. Bu tamaşa haqqında mətbuatda müxtəlif yazılar dərc edildi. Bəyənənlər də oldu, tənqid edənlər də.

Ş.Bədəlbəyli dahi bəstəkar Üzeyir Hacıbəyli tərəfindən əsası qoyulmuş Musiqili Komediya Teatrının yenidən yaradılmasında, inkişaf etdirilməsində böyük zəhmət çəkib. Bir rejissor kimi o, ilk növbədə teatrın repertuar məsələsinə, mükəmməl seçilməsinə, truppanın istedadlı insanlardan təşkil olunmasına çalışırdı. Şəmsi Bədəlbəyli Azərbaycan mədəniyyət tarixində bu teatrın yaradıcısı kimi silinməz izlər qoyub. O, dövrünün çox tanınmış, istedadlı dramaturqları, şair və yazıçıları, bəstəkarları ilə əməkdaşlıq etməyi bacarırdı. Məsələn, Sabit Rəhman, Süleyman Rüstəm, Mirzə İbrahimov, Səid Rüstəmov, Fikrət Əmirov, Süleyman Ələsgərov kimi sənətkarlarla məsləhətləşərək elə əsərlərə səhnə həyatı verərdilər ki, onlar həm tamaşaçılar, həm də teatr tənqidçiləri tərəfindən rəğbətlə qarşılanardı.



Şəmsi Bədəlbəyli zahirən çox ciddi, qaraqabaq təsir bağışlasa da, nikbin ruhlu şəxsiyyət idi. Yumoru çox sevərdi. Bu səbəbdən də quruluş verdiyi əsərlərdə duzlu gülüş, əsl yumor olardı. O, bir rejissor kimi dramaturqun ideyasını, bəstəkarın musiqisini, aktyorun ifasını səhnədə təcəssüm etdirə bilirdi. O, bu teatrın həm bədii rəhbəri, həm də direktoru vəzifəsində müxtəlif illərdə və fasilələrlə çalışmışdı. Bir müddətdə filarmoniyanın bədii rəhbəri və direktoru olan Şəmsi Bədəlbəyli 1976-cı il-dən ömrünün sonuna kimi Teatr Cəmiyyətinin sədri vəzifəsində də səmərəli fəaliyyət göstərib.

Bütün varlığı ilə Azərbaycan mədəniyyətinə xidmət etməkdən doyumsuzluq tapan Şəmsi Bədəlbəyli kino sənətinin də inkişafında öz əməyini əsirgəməyib. Hətta bir sıra bədii və sənədli filmlərdə aktyor kimi də iştirak edib. Bu gün də həmin filmlərə (“O qızı tapın”, “Axırıncı aşırım”, “Xatirələr sahili” və s.) baxanda Şəmsi Bədəlbəylinin canlandırdığı rollar diqqət çəkir. Hər şeydən əvvəl bu obrazlar ciddiliyi və təbiiliyi ilə seçilir.

Bir rejissor kimi, quruluş verdiyi tamaşalarda seyrçiləri güldürməyi, düşündürməyi, bəzən də kədərləndirməyi bacaran Şəmsi Bədəlbəyli aktyor kimi də çox inandırıcı və dərin təsir bağışlayırdı. Onu unutmaq mümkün deyildi. Onun can verdiyi tamaşalar tarixin arxivindədir. Teatr tariximizin unudulmaz rejissoru sənətin yaşaması, inkişaf etməsi üçün sözün əsl mənasında böyük cəfakeşlik göstərmiş bir insan idi...